BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2015*

UOT 342

# KONSTİTUSİYANIN HÜQUQ MÜHAFİZƏSİ SİSTEMİNDƏ KONSTİTUSİYA NƏZARƏTİNİN ANLAYIŞI VƏ MAHİYYƏTİ

**N.H.ŞÜKÜROV**
***Bakı Dövldət Universiteti***
***Nasib_05@mail.ru***

*Məqalədə Konstitusiya nəzarətinin konstitusiyanın hüquqi mühafizəsinin özünəməxsus forması kimi çıxış etdiyi, hüquq ədəbiyyatında konstitusiya nəzarəti ilə yanaşı digər anlayışlardan da istifadə edildiyi, hüquq normalarının iyerarxiyalı olmasının təmini üçün Konstitusiya nəzarətinin vacibliyi, Konstitusiya nəzarətinin bütün qanunçuluğa nəzarət sisteminin mərkəzində durduğu, konstitusiya nəzarətinin funksiyaları, Konstitusiyaya uyğun gəlməyən normativ hüquqi aktların və vəzifəli şəxslərin hərəkətlərinin aşkara çıxarılması və həmin uyğunsuzluqların aradan qaldırılması kimi məsələlər geniş tədqiq edilir.*

**Açar sözlər:** konstitusiya nəzarəti, mahiyyət, funksiyalar, hüquqi dövlət, məhkəmə hakimiyyəti, hakimiyyət bölgüsü, konstitusiyanın aliliyi, konstitusiyanın hüquqi mühafizəsi, konstitusiya nəzarətinin modelləri

Konstitusiya nəzarəti konstitusiyanın hüquqi mühafizəsinin özünəməxsus forması kimi çıxış edir. Göstərmək lazımdır ki, konstitusiya nəzarəti zamanı yalnız konstitusion normaların mühafizəsi həyata keçirilmir, həm də dəyişən şəraitə uyğun olaraq onların inkişaf etdirilməsi təmin olunur. Buna ən bariz nümunə kimi ABŞ təcrübəsini göstərmək olar. ABŞ-ın hazırda qüvvədə olan Konstitusiyası 1787-ci ildə, tamamilə fərqli sosial-iqtisadi və siyasi şəraitdə qəbul olunmuşdur. Lakin konstitusiya nəzarətinin mövcud olduğu iki əsr ərzində məhkəmələr, ilk növbədə isə ABŞ Ali Məhkəməsi öz təfsirləri (şərhləri) ilə praktiki olaraq yeni, "canlı" konstitusiya yaratmışdır.

Hüquq ədəbiyyatında konstitusiya nəzarəti ilə yanaşı digər anlayışlardan, məsələn, "konstitusion qanunçuluq", "konstitusiya mühakimə icraatı", "konstitusiya ədalət mühakiməsi" və s. anlayışlardan da istifadə edilir.

Konstitusiya nəzarəti bütün qanunçuluğa nəzarət sisteminin mərkəzində yerləşir. Bu, ilk növbədə, konstitusiyanın cəmiyyətin həyatında tutduğu xüsusi yerlə bağlıdır. Ən mühüm siyasi-hüquqi akt olmaqla konstitusiya sosial, iqtisadi, siyasi sistemlərin və dövlətin təşkilinin mühüm əsaslarını təsbit edir, insan və vətəndaşların əsas hüquq, azadlıq və vəzifələrini, məsuliyyətinin ümumi əsasla-

rını müəyyənləşdirir. Onun qüvvəsi bütün ictimai münasibətlər sisteminə, vəzifəli şəxslərə, ictimai təşkilatlara, vətəndaşlara şamil olunur. Konstitusion normaların dolğun şəkildə həyata keçirilməsi yalnız səmərəli konstitusiya nəzarəti sisteminin mövcud olduğu şəraitdə mümkündür.

Konstitusiya nəzarətinə tələbat cəmiyyətdə real gerçəkliklə şərtlənir. Təcrübə göstərir ki, bəzi hallarda konstitusiyaya uyğun olmayan aktlar qəbul edilir, konstitusiyanın və qüvvədə olan qanunvericiliyin tətbiqi sahəsində mübahisəli vəziyyətlər yaranır. Bu zaman belə problemlərin həlli konstitusiya nəzarəti orqanlarının səlahiyyətinə aid edilir. Burada, ilk növbədə normativ hüquqi aktların konstitusiyaya uyğunluğundan söhbət gedir.

Bəzən konstitusiya nəzarəti hakimiyyətin məhdudlaşdırılması və müxtəlif xarakterli mübahisələrin həlli üzrə fəaliyyət kimi nəzərdən keçirilir. Onun fəaliyyətinin hüquqauyğunluğunun ilkin şərti kimi konstitusion normaların ali və birbaşa hüquqi qüvvəyə malik olması təşkil edir.

Konstitusiya nəzarəti dövlət hakimiyyəti orqanları arasında elə münasibətlər sistemidir ki, bu zaman nəzarət orqanları (məsələn, parlament, dövlət başçısı, konstitusiya məhkəməsi) mübahisəli məsələlər üzrə qəti qərar qəbul etmək, habelə konstitusiyaya zidd hesab edilmiş aktları ləğv etmək hüququna malik olurlar.

Konstitusiya nəzarətinin zəruriliyi, ilk növbədə hüquq normalarının iyerarxiyalı olması ilə əlaqədardır. Bu, eyni zamanda, hüquq yaradıcılıq səlahiyyətinə malik orqanların iyerarxiyalı təbiətinə də əsaslanır.

Hazırda elmi ədəbiyyatda konstitusiya nəzarətinin anlayışına münasibətdə bir neçə yanaşma mövcuddur. Konstitusiya nəzarətini təhlil edən S.V.Bobotov ABŞ-da fəaliyyət göstərən konstitusiya nəzarəti institutunu Ali Məhkəmənin digər dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətini müstəqil şəkildə qiymətləndirmək və öz hüquqi səlahiyyətləri daxilində belə məsələlər üzrə ali və qəti qərar qəbul etmək hüququ kimi nəzərdən keçirir (6, 116).

M.A.Nudel konstitusiya nəzarətinə qanunların konstitusiyaya uyğunluğu baxımından yoxlanılması kimi anlayış verir (18, 57).

F.S.Abdullayevin fikrincə, konstitusiya nəzarəti təkcə məhkəmə nəzarəti ilə məhdudlaşmır. Burada həmçinin qanunverici və icra hakimiyyətlərinin funksional rolu, mənəvi, milli və dini dəyərlərin qorunması qaydaları və ənənəsi də nəzərə alınmalıdır. İkincisi, konstitusiya nəzarəti bir sistem kimi mürəkkəb və harmonik fəaliyyət tələb edən müxtəlif səlahiyyətli orqanların məcmusu olub, yalnız müəyyən şərtlər olduqda mövcud ola və səmərəli fəaliyyət göstərə bilər (2, 62). Həmçinin müəllif göstərir ki, «konstitusiya nəzarəti» bilavasitə konstitusiyanın mövcudluğu ilə əlaqədar olub, konstitusiya ilə təsbit olunmuş norma və prinsiplərin qorunması, hakimiyyətin müxtəlif orqanlarının müəyyən edilmiş səlahiyyət balansının təmini, habelə insan və vətəndaşların konstitusiya hüquq və azadlıqlarının mühafizəsi məqsədi daşıyır. Başqa sözlə desək, konstitusiya nəzarətinin əsas missiyası, onun sosial mahiyyəti «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikasının Qanununda qeyd olunduğu kimi –

konstitusiyanın aliliyinin təmini və Konstitusiya ilə təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsidir (2, 63).

D.L.Zlatopolskiy konstitusiya nəzarətini konstitusiyaya və konstitusiya qanunlarına əməl olunmasının, habelə ali dövlət orqanlarının bütün digər aktlarının konstitusiyaya uyğunluğunun yoxlanılması kimi xarakterizə edir(11, 58).

A.A.Proskurin konstitusiya nəzarətini yazılı Konstitusiyadan, nəzarət obyektlərindən, nəzarət orqanlarının məcmusundan, habelə nəzarət orqanlarına müraciət etmək səlahiyyətinə malik subyektlərin məcmusundan ibarət olan struktur-funksional sistemi özündə əks etdirən xüsusi hüquqi institut kimi nəzərdən keçirir (19, 9).

V.P.Belyayev konstitusiya nəzarətini səlahiyyətli dövlət orqanlarının spesifik funksiyası kimi xarakterizə edərək göstərir ki, geniş mənada konstitusiya nəzarətinin məqsədi konstitusiya quruluşunun mühafizəsi, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, dövlət idarəetməsinin səmərəliliyinin artırılması, dövlət quruluşunun stabilliyinin saxlanılması, qəbul edilən hüquqi aktların konstitusiyaya uyğunluğunun təmin olunması, vəzifəli şəxslərin hərəkətlərinin qanunçuluq rejiminə uyğunlaşdırılması və bütövlükdə dövlətdə qanunçuluq və hüquq qaydasının təmin edilməsindən ibarətdir (8, 15).

Həmçinin konstitusiya nəzarətinə Konstitusiyanın, dövlətdə qəbul edilən digər qanunların və aktların həyata keçirilməsinə nəzarət üzrə hərəkətlərin məcmusu (bilavasitə ixtisaslaşdırılmış fəaliyyətin özü), eləcə də dövlət və yerli özünüidarə orqanları tərəfindən qəbul edilmiş normativ hüquqi aktların əsas qanuna uyğunluğuna nəzarət üzrə qanunvericiliklə müəyyən edilmiş xüsusi prosedura kimi də anlayışlar verilir.

Geniş mənada konstitusiya nəzarətinin əsas təyinatı Konstitusiyaya uyğun gəlməyən normativ hüquqi aktların və vəzifəli şəxslərin hərəkətlərinin aşkara çıxarılması və həmin uyğunsuzluqların aradan qaldırılması üzrə zəruri tədbirlərin görülməsindən ibarətdir.

V.A.Kryajkov və L.V.Lazarevə görə mahiyyət etibarı ilə konstitusiya nəzarəti Konstitusiyanın aliliyinin və birbaşa qüvvəsinin, hakimiyyətlərin şaquli və üfiqi şəkildə konstitusion qarşılıqlı əlaqəsinin, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin, habelə "canlı" konstitusiya hüququnun yaradılmasının təmin olunmasıdır (12, 59).

Qanunvericiliyin və konstitusiya nəzarətini həyata keçirən orqanların fəaliyyət təcrübəsinin dərin və hərtərəfli təhlili göstərir ki, bu sahədə olduqca fərqli və mühüm vəzifələr həll olunur. Əlbəttə ki, birinci və əsas vəzifə müxtəlif normativ hüquqi aktların konstitusiya və qanunlara uyğunluğunun yoxlanılması, bu sahədə uyğunsuzluqların aşkar edilməsi və aradan qaldırılmasından ibarətdir. Ikinci vəzifə konstitusion əhəmiyyət kəsb edən mübahisəli məsələlərin həlli ilə bağlıdır. Konstitusiya nəzarəti ilə hüquqi dövlət arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Konstitusiya nəzarəti olmadan hüquqi dövlətin mərkəzi prinsipi hüququn (qanunun) aliliyi prinsipi həyata keçirilə bilməz. Qanunların, qanunqüvvəli aktların konstitusiyaya uyğunluğu məhkəmə tərəfindən yoxlanılmadan

hüququn aliliyi təmin edilə bilməz. Burada konstitusiya nəzarətinin digər mühüm vəzifəsi - hüququn (qanunun) aliliyinin təmin olunması vəzifəsi özünü göstərir.

O.V.Brejnev konstitusiya nəzarəti institutunun mühüm elementlərindən biri qismində onun funksiyalarını fərqləndirir. Müəllifin fikrincə, konstitusiya nəzarətinin funksiyaları dedikdə nəzarət orqanlarının fəaliyyətinin əsas istiqamətləri başa düşülür (9, 17).

Hüquq ədəbiyyatında konstitusiya nəzarətinin funksiyalarına aşağıdakılar aid edilir:

- siyasi funksiya – dövlət hakimiyyəti orqanları arasında hər hansı ziddiyyət yarandığı halda konstitusiya nəzarəti orqanları öz səlahiyyətləri daxilində cəmiyyətdə və dövlətdə siyasi stabilliyi təmin edən qərarlar qəbul edir;

- tənzimləyici funksiya – iki istiqamətdə reallaşır: konstitusion qanunçuluğun pozulmasının qarşısının alınması və yeni hüquq normalarının yaradılması (13, 11);

- mühafizə funksiyası – konstitusion qanunçuluğu pozan şəxslərə qarşı dövlət məcburetmə tədbirlərinin tətbiq edilməsi ilə xarakterizə olunur;

- ideoloji funksiya – xalqın əxlaqi, siyasi və hüquqi şüurunun formalaşmasına, milli və dini dözümlülük prinsiplərinin təsdiq edilməsinə Konstitusiyanın təsirini ifadə edir (15, 4).

S.V.Bobotov məhkəmə konstitusiya nəzarəti orqanlarının əsas funksiyaları kimi bilavasitə nəzarətin özünü, əsas konstitusion insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsini, əks balans funksiyasını, həmçinin Konstitusiyanın uyğunlaşdırılmasını göstərir (7, 5). M.Y.Mityukov və A.M.Barnaşov kimi müəlliflər məhkəmə konstitusiya nəzarətinin funksiyalarına aşağıdakıları aid edirlər:

- Konstitusiyanın aliliyinin və birbaşa hüquqi qüvvəsinin, onun bütün hüquq subyektləri tərəfindən icrasının təmin olunması;
- hakimiyyət bölgüsü prinsipinin həyata keçirilməsinə nəzarət;
- əsas konstitusion insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi;
- konstitusion-hüquqi mübahisələrin həlli (17, 22-23).

Bəzən konstitusiya nəzarətinin funksiyaları sırasında Konstitusiyanın şərhi və hüquq yaradıcılığı funksiyaları da fərqləndirilir. Yəni konstitusiya nəzarəti orqanları normayaradıcılığı prosesində də iştirak edə bilərlər. Konstitusiya nəzarəti orqanlarının normayaradıcılığı prosesində iştirakının özünəməxsus fərqli xüsusiyyətləri vardır. Özünəməxsusluq əsasən aşağıdakılardan ibarətdir:

- bu, hüquq mühafizə sisteminə aid olan orqanların fəaliyyətidir;
- bu fəaliyyət, ilk növbədə ictimai münasibətlərin hüquqi tənzimlənməsi sahəsində ziddiyyətlərin aşkara çıxarılması və aradan qaldırılması ilə bağlıdır;
- konstitusiya nəzarəti orqanları üçün normayaradıcılığı onların əsas funksiyası olan konstitusiyanın ali hüquqi qüvvəsinin təmin edilməsi ilə müqayisədə ikinci dərəcəli funksiyadır.

Göründüyü kimi, konstitusiya nəzarəti dövlət hakimiyyəti orqanlarının,

habelə ictimai funksiyalar yerinə yetirən ictimai birliklərin aktlarının və fəaliyyətinin konstitusiyaya uyğunluğunun yoxlanılmasının istənilən formasını özündə əks etdirir. Konstitusiya nəzarətinin əsas vəzifəsi isə müxtəlif aktların konstitusiya və qanunlara uyğunsuzluğunun aşkara çıxarılması və aradan qaldırılmasından ibarətdir.

Konstitusiya nəzarətinin mahiyyətinə dair müxtəlif nəzəriyyələr və yanaşmalar mövcuddur. Təbii-hüquq və ya ictimai müqavilə nəzəriyyəsinə əsasən konstitusiya, ilk növbədə insan və vətəndaş hüquqlarının təminatçısı olaraq idarə edən və idarə edilənlər üçün qaydalar müəyyən edir, konstitusiya nəzarəti isə bu qaydalara riayət edilməsinə nəzarət edir (3, 434). Üzvi nəzəriyyə baxımından konstitusiya hakimiyyətin təsis aktı olduğuna görə və eləcə də, konstitusiyada əks olunan hakimiyyət orqanlarının aktları təsisçiyə münasibətdə daha aşağı hüquqi qüvvəyə malik olduğundan ona zidd olmamalıdırlar. İnstitusional nəzəriyyəyə görə konstitusiya hakimiyyət orqanları üçün onların birinin digərinin səlahiyyətlərinə müdaxilə etməsinin qarşısını almaq məqsədilə müvafiq qaydalar müəyyən edir.

Konstitusiya nəzarətinin mahiyyəti və forması müxtəlif hüquqi sistemlərdə eyni deyildir. Konstitusiya nəzarəti konstitusiyanin aliliyinin təmin edilməsinin xüsusi funksiyası olaraq normativ hüquqi aktları qəbul edən orqanların əsas funksiyası ola bilməz, çünki bu orqanlar özləri konstitusiya nəzarətinin obyektidirlər (14, 9). Bu səbəbdən də normativ hüquqi aktların konstitusiyaya uyğunluğunun təmin edilməsini parlamentə tapşırmaq məqsədəmüvafiq deyil. Konstitusiya nəzarəti ziddiyətlər və əksliklər sferasında meydana çıxır və onun əsas funksiyası pozulmuş tarazlığı müəyyən etmək, qiymətləndirmək və bərpa etməkdir (21, 9). Buradan göründüyü kimi konstitusiya nəzarəti yalnız siyasi hakimiyyətə münasibətdə müstəqil olan və hüquq mübahisələrini qərəzsiz həll etmək imkanına malik orqanlar tərəfindən həyata keçirilə bilər.

Ümumiyyətlə, konstitusiya nəzarəti sistemi çox geniş dövlət orqanları dairəsini əhatə edir. Bu orqanlara aşağıdakıları aid etmək olar: ixtisaslaşdırılmış konstitusiya nəzarəti orqanları və digər konstitusiya nəzarəti orqanları. İxtisaslaşdırılmış konstitusiya nəzarəti orqanlarına konstitusiya məhkəmələri, konstitusiya şuraları və s., digər konstitusiya nəzarət orqanlarına isə dövlət başçısı, parlament (bir qayda olaraq özü tərəfindən qəbul edilən aktlara münasibətdə), hökumət (bir qayda olaraq özü və aşağı instansiyalı icra orqanları tərəfindən qəbul edilən inzibati aktlara münasibətdə), ümumi yurisdiksiya məhkəmələri, prokurorluq (bəzi ölkələrdə) aiddir. Konstitusiya nəzarətini həyata keçirən bütün orqanlar sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir, bu da öz növbəsində hüquqi, demokratik dövlətin normal funksiyalaşmasının vacib şərti olmaqla, konstitusiyanın effektiv və hərtərəfli hüquqi müdafiəsini təmin edir.

Konstitusiya nəzarətinin predmetinə dair iki yanaşma mövcuddur. Birinci yanaşmanın mahiyyəti ondan ibarətdir ki, konstitusiya nəzarətinin predmeti yalnız digər normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunun yoxlanılmasıdır. Belə nəzarəti parlamentin özü də həyata keçirə bilər. Bunun üçün

deputatlardan və ya mütəxəssislərdən ibarət komissiya yaradılır. Komissiya yalnız öz rəyini hazırlayır, qəti qərarı isə parlament qəbul edir. Nəzarət funksiyası ali nümayəndəli hakimiyyət orqanının rəyasət heyətinə də tapşırıla bilər. Konstitusiya nəzarətinin bu modeli bir sıra Şərqi Avropa ölkələrində tətbiq edilir. Lakin bu model səmərəli hesab edilə bilməz. Çünki parlament həm qanunları qəbul etmək, həm də onların Konstitusiyaya uyğunluğunu yoxlamaq səlahiyyətinə malikdir. Öz qərarlarını yoxlayan orqanın bitərəf və qərəzsiz olması şübhə doğurur. Digər tərəfdən parlament digər mərkəzi və yerli dövlət orqanlarının aktlarının Konstitusiyaya uyğunluğunu yoxlamaq səlahiyyətinə malik olsa da, sonuncuların parlamentin qəraından şikayət etmək hüququ yoxdur. Həmçinin bu model hakimiyyətlərin bölünməsi prinsipinə də ziddir. Ona görə də konstitusiya nəzarətinin predmetinə dair ikinci yanaşma daha mühüm əhəmiyyət və maraq kəsb edir. Həmin yanaşmaya görə ictimai münasibətlərin ölkəni idarə edən dövlət orqanlarının məcmusunu, qanunvericiliyi və digər hüquq yaradıcılığını, dövlətin daxili strukturunu, vətəndaş cəmiyyətini, demokratiya institutlarını, siyasi partiyalar da daxil olmaqla vətəndaşların ictimai birliklərinin funksiyalarını, vətəndaşlarını hüquq və maraqlarının müdafiəsini özündə əks etdirən və dövlətin konstitusiya quruluşu ilə bağlı olan ayrıca sahəsi mövcuddur. Həmin predmetlə bağlı bütün ictimai münasibətlər tez və ya gec Konstitusiyada öz əksini tapır. Müvafiq dəyərlərin müdafiəsi isə konstitusiya nəzarətinin köməyi ilə həyata keçirilir və bunun üçün xüsusi olaraq yaradılmış orqanlar konstitusiya nəzarəti orqanları adlanır. Göründüyü kimi, bu yanaşma baxımından konstitusiya nəzarətinin predmeti daha genişdir. Həmçinin burada hüquq münasibətlərinin iştirakçıları mübahisə edə, aktı fərqli şəkildə təfsir edə bilərlər. Ona görə də, qanunların eyni cür şərh edilməsi, hamı üçün eyni dərəcədə məcburi olan qərarların qəbul edilməsi üçün arbitr funksiyasını yerinə yetirən təsisata ehtiyac yaranır. Belə təsisat kimi isə məhkəmələr çıxış edir.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, konstitusiya nəzarətini həyata keçirən orqanlar arasında ümumi və ixtisaslaşdırılmış məhkəmələr olduqca mühüm rol oynayır. Məhkəmə konstitusiya nəzarəti hüquqi fəaliyyətin xüsusi növü olmaqla normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunun yoxlanılmasından ibarətdir. Məhkəmə konstitusiya nəzarətinin xüsusi xarakteri onda ifadə olunur ki, məhkəmə orqanları özlərinin xüsusi konstitusion səlahiyyətləri əsasında normativ hüquqi aktı və ya onların ayrı-ayrı müddəalarını qəti olaraq konstitusiyaya zidd hesab edə və ya qüvvəsinə xitam verə bilər. O.V.Brejnev qeyd edir ki, konstitusiya hüquq münasibətlərinə təsirinin xarakterinə görə məhkəmə konstitusiya nəzarəti aşağıdakı səlahiyyətlərin reallaşdırılmasını özündə əks etdirir:

- konstitusiya hüquq mübahisələrinin həll edilməsi;
- konstitusiya hüquqi məsuliyyətin tətbiq edilməsi üçün əsasların müəyyən edilməsi, dövlət-hüquqi proseduraların həyata keçirilməsi zamanı konstitusion tələblərə əməl olunmasının yoxlanılması;

- konstitusiya hüquq münasibətlərinin yaranması, dəyişməsi və ya xitam olunması üzrə digər hüquqi faktların müəyyən edilməsi (10, 12).

Bir sıra ölkələrdə, məsələn ABŞ, Yaponiya, Filippin, Skandinaviya ölkələrində hər bir məhkəmə normativ aktın konstitusiyaya uyğunluğu haqqında məsələni həll edir, lakin bu sahədə ali məhkəmə instansiyalarının qərarları prioritet təşkil edir (mərkəzləşdirilməmiş nəzarət). Bir qrup ölkələrdə isə, məsələn, Qana, Namibiya, Şri-Lanka, Estoniyada konstitusiya nəzarəti yalnız ali məhkəmə instansiyası tərəfindən həyata keçirilir (mərkəzləşdirilmiş nəzarət). Bəzi federativ dövlətlərdə ali məhkəmə instansiyası ilə yanaşı, konstitusiya nəzarətini federasiya subyektlərinin ali məhkəmələri də həyata keçirir (Avstraliya, Kanada, Hindistan, Malayziya). Lakin burada federal Ali Məhkəmə normativ aktların konstitusiyaya uyğunluğu haqqında məsələnin həlli zamanı sonuncu instansiya qismində çıxış edir (22, 92-95).

Konstitusiya nəzarəti fəaliyyətini həyata keçirən orqanların çoxnövlülüyü, həm də onların dövlət iyerarxiyasının yüksək pilləsinə aid olması (parlament, prezident və s.), konstitusiya nəzarəti funksiyasının məzmununu təşkil edən məsələlərin olduqca mühüm əhəmiyyət kəsb etməsi və nəhayət, ixtisaslaşdırılmış konstitusiya nəzarəti orqanlarının nüfuzunun, sosial əhəmiyyətinin və rolunun yüksək qiymətləndirilməsi belə nəticəyə gəlməyə əsas verir ki, konstitusiya nəzarəti fəaliyyətinin mahiyyəti, ilk növbədə dövlət hakimiyyətinin həyata keçirilməsi prosesi ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Məhz bu səbəbdən də, inkişaf etmiş demokratiya şəraitində əsasən məhkəmə formaları vasitəsilə həyata keçirilən və buna görə də, ilk növbədə, konstitusiya məhkəmə nəzarəti ilə eyniləşdirilən konstitusiya nəzarəti institutunun mahiyyətinin əsası kimi insan hüquq və azadlıqlarını təmin edən, habelə dövlətin təşkili əsasını və onun hüquqi xüsusiyyətlərini müəyyən edən fundamental bir prinsip kimi hakimiyyətlərin bölgüsü prinsipini nəzərdən keçirmək lazımdır. Beləliklə, hakimiyyətlərin bölgüsü prinsipi konstitusiya məhkəmə nəzarətinin yaranmasını şərtləndirməklə yanaşı həm də onun mahiyyətinin əsası kimi çıxış edir. Müəlliflərdən V.V.Abaşmadze və A.M.Barnaşov üçdən yeddiyə qədər hakimiyyət növü fərqləndirirlər. Onların fikrincə, hakimiyyətlər bölgüsü ilə bağlı klassik təlimlərin məzmunu heç də həmişə hakimiyyətlərin bu siyahısı ilə üst-üstə düşmür. Belə ki, həmin təlimlərdə məhkəmə hakimiyyəti heç vaxt qanunvericilik və icra hakimiyyəti ilə eyni səviyyəli müstəqil hakimiyyət qolu kimi fərqləndirilməmişdir (4, 27). Sonradan məhkəmə hakimiyyətinin hakimiyyətlər triadasının mübahisəsiz və müstəqil elementi kimi tanınmasında İ.Kantın «hüquqi dövlət» konsepsiyası ilə bağlı ideyalarının təsiri, onların inkişaf etmiş demokratik dövlətlərin təcrübəsində reallaşdırılması mühüm və həlledici rol oynamışdır. Konstitusiya nəzarəti əsasən onun məhkəmə forması ilə assosiasiya olunaraq dövlət hakimiyyəti mexanizminin elementi kimi çıxış edir və onun iki əsas qolu – qanunvericilik və icra hakimiyyəti ilə eyni səviyyədə dayanır. Hüquq ədəbiyyatında konstitusiya nəzarətinin hansı hakimiyyət qoluna aid olması məsələsi mübahisəli olaraq qalır. Bir qrup müəlliflər hesab edir ki, konstitusiya

nəzarəti məhkəmə hakimiyyətinin tərkib hissəsidir. İkinci qrup müəlliflər göstərir ki, konstitusiya ədalət mühakiməsi tam mənada “dördüncü hakimiyyət” olmasa da üç hakimiyyətdən yüksəkdə dayanır. Üçüncü qrup müəlliflər konstitusiya nəzarətini geniş mənada xüsusi hakimiyyət – nəzarət hakimiyyəti kimi xarakterizə edirlər. V.Y.Çirkin konstitusiya nəzarətini nəzarət hakimiyyətinin tərkib hissəsi kimi nəzərdən keçirir (20, 249). Dövlət hakimiyyəti mexanizminin tərkib hissəsi olmaqla konstitusiya məhkəmə nəzarəti digər hakimiyyət qolları üçün xarakterik olan əlamətləri daşıyır. Konstitusiya Məhkəməsi tərəfindən konstitusiya nəzarəti fəaliyyətinin reallaşdırılması prosesi üçün qanunvericilik, icra və məhkəmə hakimiyyətləri öz funksiyalarından istifadə edirlər.

Bəzən konstitusiya məhkəmələri tərəfindən həyata keçirilən konstitusiya nəzarətinə qanunvericilik funksiyası kimi də baxılır. Məlum olduğu kimi, konstitusiya nəzarətinin obyektini qanunun tətbiqi deyil, daha çox onun özü təşkil edir. Hakimiyyət bölgüsü şərtlərində məhkəmə hakimiyyəti ümumilikdə norma yaradıcılığı səlahiyyətlərinə malik deyil və öz funksiyasını yerinə yetirərkən mövcud hüququn dəyişdirilməsi və yeni hüquq normalarının yaradılması üzrə qanunvericiliklə məşğul olmur, yalnız konstitusiya və qanunları tətbiq edir və qüvvədə olan qanunvericilik baxımından müvafiq faktları qiymətləndirir. Bununla da, məhkəmə hakimiyyəti keyfiyyətinə görə əsas səlahiyyətləri norma yaradıcılığından ibarət olan qanunverici və icraedici hakimiyyətdən fərqlənir. Hakimiyyət bölgüsü prinsipinin mahiyyətinə görə qanuni fəaliyyət zamanı məhkəmə hakimiyyəti qüvvədə olan müvafiq hüquq normasını axtarır, tapır və tətbiq edir, lakin yeni hüquq norması yaratmır. Məhkəmə hakimiyyətinin qanunvericilik səlahiyyətlərinin olmasını qəbul etmək mütləq məhkəmə özbaşınalığına gətirib çıxaracaq. Belə ki, eyni zamanda qanunu həm qəbul, həm də tətbiq edərək məhkəmə hakimiyyəti öz əsas funksiyası olan mövcud hüquq və qanunçuluğun qərəzsiz müdafiə edilməsini həyata keçirmək iqtidarında olmayacaqdır. Bununla belə, məhz məhkəmədə norma yaradıcılığı funksiyasının olmaması məhkəmə hakimiyyətini qeyri-qanuni fəaliyyətdən çəkindirir və onu mövcud hüquqa tabe edir. Buna görə də, məhkəmənin normativ funksiyasını hüquq yaradıcılığı funksiyasından fərqləndirmək məqsədəmüvafiq olardı (2, 43).

Konstitusiya nəzarətini həyata keçirən ixtisaslaşdırılmış orqan kimi Konstitusiya Məhkəməsinin yaradılması prosesində maneələrdən biri daxili siyasi səbəblər olmuşdur. Belə ki, artıq parlamentə nəzarət etmək şüurlu şəkildə dərk edilirdi. Çünki qanunvericilik fəaliyyəti hərəkətedici «seçki həyacanı» ilə müşahidə edilməklə azadlıq üçün mühüm təhlükə yaradırdı. Məhz ən böyük çoxluq üçün də əks balans zəruridir. Çünki bu olmadan parlament rejimi səmərəli şəkildə fəaliyyət göstərə bilməz. Parlament çoxluğuna qarşı isə müxalifət müdafiəyə ehtiyac duyurdu. Məhz çoxluğun sabit hakimiyyəti Konstitusiya Məhkəməsinin yaradılmasına şərait yaratdı. Konstitusiya mühakimə institutu Avropa parlamentlərinin və qitə-avropa hüquq sisteminin yarımparlamentli rejimləri üçün həyati əhəmiyyət kəsb edirdi. Keçmiş sovet doktirinasında isə konstitusiya mühakimə institutu ümumiyyətlə nəzərdə tutulmurdu.

Konstitusiya nəzarəti ilə bağlı məsələləri təhlil edərkən onun obyektlərini də nəzərdən keçirmək lazımdır. V.V.Maklakovun haqlı olaraq qeyd etdiyi kimi dünya təcrübəsində konstitusiya nəzarətinin obyektlərinin sayı tədricən artmış və bu gün əsasən aşağıdakılardan ibarətdir:

- qanunlar və onların müxtəlif növləri, konstitusiyaya dəyişikliklər və əlavələr edən qanunlar, referendumla qəbul edilmiş qanunlar, orqanik (üzvi) və adi qanunlar, qanunvericilik orqanı tərəfindən qəbul edilən digər aktlar;
- icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları;
- yerli özünüidarə orqanlarının aktları;
- federativ və ya konfederativ dövlətlərə xas olan dövlətdaxili müqavilələr;
- məhkəmə orqanlarının aktları;
- ictimai birliklərin aktları və hərəkətləri;
- fərdi hüquq tətbiqetmə aktları və səlahiyyətli dövlət orqanlarının və vəzifəli şəxslərin hüquq tətbiqetmə təcrübəsi;
- beynəlxalq müqavilələr;
- referendum və seçkilərin təşkili, aparılması və nəticələrinin təsdiq edilməsi;
- siyasi partiyaların və digər ictimai birliklərin yaradılması və fəaliyyəti (16, 13).

Konstitusiya nəzarəti vasitəsilə qanunvericilik sistemində olan kolliziyalar aradan qaldırılır, hüququn tətbiqi praktikasında ahəngdar, məntiqi inkişaf təmin olunur, müvafiq subyektlər arasındakı konfliktlərin qarşısı alınır, konstitusiya və normativ aktların hüquqi mühafizəsi təmin edilir, hakimiyyət orqanlarının səlahiyyət üzrə mübahisələri və insan hüquq və azadlıqlarının müdafiəsi məsələləri həll olunur.

Ümumiyyətlə, bütün qeyd olunanların ümumiləşdirilməsi nəticəsində konstitusiya nəzarətinə geniş mənada səlahiyyətli orqanların normativ hüquqi aktların sistemində Konstitusiyanın aliliyinin və birbaşa hüquqi qüvvəsinin təmin edilməsinə yönələn, konstitusiya quruluşunun və onun əsaslarının mühafizəsi, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı, dövlət müxanizminin və bütün hüquq sisteminin normal və səmərəli fəaliyyət göstərməsi, qanunçuluq və hüquq qaydasının təmin olunması məqsədi ilə həyata keçirilən xüsusi funksiyası, habelə dövlət orqanları və xüsusi şəxslər tərəfindən qəbul edilmiş aktların ölkənin Əsas qanununa uyğunluğuna dair qanunvericiliklə müəyyən olunmuş nəzarət prosedurası kimi anlayış vermək olar.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2012, 100 s.
2. Abdullayev F.S. Azərbaycan Respublikasında konstitusiya icraatının nəzəri və praktiki problemləri. Bakı: Elm, 2009, 396 s.
3. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərs vəsaiti. Bakı: BDU, 2002, 632 s.
4. Абашмадзе В.В. Учение о разделении государственной власти и его критика. Тбилиси: Сабгота Сакартвело, 1972, 51 с.
5. Брайс Д. Американская Республика. Ч.1. М.: Наука, 1989, 403 с.

6. Боботов С.В. Конституционный контроль в буржуазных странах: доктрина и практика // Советское государство и право, 1989, № 3, с. 115-120
7. Боботов С.В. Конституционная юстиция (сравнительный анализ). М.: ЕАБ, 1994, 305 с.
8. Беляев В.П. Контроль как форма юридической деятельности и гарантия законности // Право и политика, 2004, № 2, с. 9-19.
9. Брежнев О.В. Защита основных прав и свобод граждан в Конституционном Суде: Дисс... канд. юрид. наук. М., 1997, 26 с.
10. Брежнев О.В. Судебный конституционный контроль в России: проблемы методологии, теории и практики: Дис. ...д-ра юрид. наук. М., 2006, 194 с.
11. Воеводин Л.Д., Златопольский Д.Л. Государственное право зарубежных социалистических стран. М., 1984, с. 44-83
12. Кряжков В.А., Лазарев Л.В. Конституционная юстиция в Российской Федерации: Учебное пособие для вузов. М.: БЕК, 1998, 462 с.
13. Киреева Е.Ю. Конституционный Суд и конституционное судопроизводство: Автореф. дис. ... канд. юрид.наук. Ростов н/Д, 1997, 26 с.
14. Лазарев Л.В. Правовые позиции конституционного суда России. М.: Гордец, 2003, 528 с.
15. Лазарев В.В., Хабриева Т.Я. Охрана конституции и конституционных прав граждан: Лекция для слушателей 3-го фак. Акад. управления МВД. М.: 1996, 264 с.
16. Маклаков В.В. Конституционный контроль в странах – членах Европейского Союза. М.: ИНИОН РАН, 1995, 64 с.
17. Митюков М.А. Конституционные суды на постсоветском пространстве. М., 1999, 157 с.
18. Нудель М.А. Конституционный контроль в капиталистических странах. М.: Юридическая литература, 1968, 287 с.
19. Проскурин А.А. Перспективы развития конституционного контроля в Российской Федерации: Автореф.дис. ...канд. юрид. наук. Орел, 2006, 25 с.
20. Чиркин В.Е. Государственное управление. Элементарный курс. М.: Юрист, 2001, 320 с.
21. Шульженко Ю.Л. Закон о Конституционном Суде РФ 1994 // Государство и право, 1995, № 7, с. 3-10
22. Feno S. The Role of State Supreme Courts in the New Judicial Federalism. N.Y., 1997, 448 p.

## ПОНЯТИЕ И ЗНАЧЕНИЕ КОНСТИТУЦИОННОГО КОНТРОЛЯ В СИСТЕМЕ ПРАВОВОЙ ОХРАНЫ КОНСТИТУЦИИ

**Н.Г.ШУКУРОВ**

**РЕЗЮМЕ**

В статье подробно исследуются проблемы конституционного контроля как особой формы правовой охраны Конституции, рассматриваются примеры использования в юридической литературе других различных определений «конституционного контроля», отмечается его значимость в определении иерархии правовых норм. Конституционный контроль стоит в центре системы контроля за всей правовой базой. В статье рассмотрены также функции конституционного контроля, вопросы выявления несоответствующих Конституции нормативно-правовых актов и деятельности должностных лиц, а также вопросы устранения этого несоответствия.

**Ключевые слова:** конституционный контроль, значение, функции, правовое государство, судебная власть, разделение властей, верховенство Конституции, правовая охрана Конституции, модели конституционного контроля

## THE NOTION AND THE ESSENCE OF THE CONSTITUTIONAL CONTROL IN THE LEGAL PROTECTION SYSTEM OF THE CONSTITUTION

**N.H.SHUKUROV**

**SUMMARY**

The article thoroughly analyzes the issues, of the constitutional control as a specific form of the legal protection of the constitution and widely researches the importance of the constitutional control for providing hierarchy of the legal norms; finding normative legal acts, which do not fit with the constitution and the acts of the authorities and elimination of those discrepancies.

**Key words:** the notion of constitutional control, essence of the constitutional control, functions of the constitutional control, rule of law, judiciary, judicial system, division of the power, the supremacy of the Constitution, legal protection of the constitution, models of the constitutional control